# Universalilər dünyası

written by Anar Jafarov Anar Cəfərov
Bertran Rassel (*Bertrand Russell*; 1872-1970) məşhur britaniyalı filosof, analitik fəlsəfənin yaradıcılarındandır. Onun zəngin yaradıcılığı fəlsəfənin bir çox fundamental suallarına cavab axtarışını özündə ehtiva edir. Hazırda biz Rasselin dünyanın onlarca müxtəlif dillərinə tərcümə edilmiş, geniş oxucu auditoriyası üçün nəzərdə tutulan *Fəlsəfənin problemləri* (*The Problems of Philosophy*) əsərini ingilis dilindən Azərbaycan dilinə tərcümə etməkdəyik. Əsər on beş fəsildən ibarətdir ki, onların da hər biri mühüm bir fəlsəfəsi mövzuya həsr edilmişdir. Tərcüməmizin doqquzuncu hissəsini aşağıda oxuya bilərsiniz.

Dr. Anar Cəfərov

Əvvəlki fəslin sonunda gördük ki, əlaqələr və bənzər nəsnələr göründüyü qədərilə fiziki obyektlərdən, həmçinin zehinlərdən və hissi verilənlərdən müəyyən dərəcədə fərqli varlığa malikdir. Bu fəsildə biz həmin varlıq növünün təbiətinin nə olduğunu, həmçinin belə növ varlığa malik hansı obyektlərin olduğunu nəzərdən keçirməliyik. Gəlin sonuncu sualdan başlayaq.

İndi məşğul olduğumuz problem çox qədim bir problemdir; onu fəlsəfəyə Platon gətirib. Platonun "ideyalar nəzəriyyəsi" məhz bu problemi həll etmək üçün bir cəhddir və mənim fikrimcə, o, indiyə qədər edilmiş ən uğurlu cəhdlərdən biridir. Aşağıda müdafiə olunan nəzəriyyə sadəcə dövr üçün zəruri hesab olunan bəzi dəyişikliklər istisna olmaqla, əsasən Platonunkudur.

Platon bu problemlə təqribən aşağıdakı cür qarşılaşmışdı. Gəlin, məsələn, *ədalət* anlayışını nəzərdən keçirək. Əgər ədalətin nə olduğunu özümüzdən soruşsaq, onu aydınlaşdırmaq üçün belə başlamaq təbii olar ki, bu və digər ədalətli aktın ümumi nəyə malik olduğunu aşkarlamaq məqsədilə onları nəzərdən keçirək. Onların hamısı hansısa şəkildə ədalətli olan hər

şeydə – başqa heç nədə deyil – aşkarlanası ümumi təbiətə malik olmalıdır. Bu ümumi təbiət – ki, onun hesabına onların hamısı ədalətlidir – ədalətin özü olacaq; o, gündəlik həyatın faktlarına qarışmaqla ədalətli aktların çoxluğunu yaradan xalis mahiyyətdir. Vəziyyət ümumi faktlara tətbiq oluna bilən, məsələn, "ağlıq" kimi istənilən başqa sözlə bağlı da oxşardır. Bu söz müəyyən sayda tək (particular) şeylərə ona görə tətbiq olunur ki, həmin şeylər eyni təbiəti və ya mahiyyəti bölüşür. Xalis mahiyyəti Platon "ideya" və ya "forma" adlandırır. (Güman edilməməlidir ki, zehin tərəfindən dərk edilə bilməsinə baxmayaraq "ideyalar" – sözün Platon işlətdiyi mənasında – zehinlərdə mövcuddur.) *Ədalət* "ideyası" ədalətli olan heç bir şeylə eyni deyil: o, nədirsə, tək şeylərdən fərqlidir, tək şeylərin iştirak etdiyi nəsnədir. Tək şey olmadığından, o özü hissi dünyada mövcud ola bilməz. Bundan əlavə, hissi şeylər kimi o, tez keçici və ya dəyişkən deyil: o, əbədi, dəyişməz və dağılmazdır.

Beləliklə, Platon ümumi hissi dünyadan daha gerçək olan fövqəlhissi dünyaya keçid edir; bu, dəyişilməz ideyalar dünyasıdır ki, hisslər dünyasına onun malik olduğu, hər nə qədər sönükdürsə də, gerçəklik inikası verir. Əsl gerçək dünya, Platona görə, ideyalar dünyasıdır; çünki hissi dünyadakı şeylər haqqında nə deməyə çalışsaq da, yalnız bunu deməyə müvəffəq ola bilərik ki, onlar filan-filan ideyalarda iştirak edir və bu da onların bütün xüsusiyyətlərini müəyyən edir. Buradan mistisizmə keçid etmək çox asandır. Mistik işıqlanmada ideyaları hissi obyektləri gördüyümüz kimi *görməyə* ümid edə bilərik; həmçinin təsəvvür edə bilərik ki, ideyalar səmada mövcuddur. Belə mistik düşüncələr çox təbiidir, hərçənd həmin nəzəriyyənin əsası məntiqdədir və biz onu əsası məntiq olan nəzəriyyə kimi nəzərdən keçirməliyik.

Zaman keçdikcə "ideya" sözü Platonun "ideyalarına" tətbiq edildikdə tamamilə çaşdırıcı olan müxtəlif assosiasiyalar qazanıb. Ona görə də biz Platonun nə nəzərdə tutduğunu izah etmək üçün "ideya" sözü əvəzinə "universali" sözündən istifadə edəcəyik. Platonun nəzərdə tutduğu nəsnə növünün mahiyyəti

onun duyğularda verilən tək şeylərə qarşı qoyulmasıdır. Duyğularda verilən və ya duyğularda verilən şeylərlə eyni təbiətə malik olan hər şeyi *tək* hesab edirik. Bunun əksinə olaraq, *universali* bir çox təklər tərəfindən bölüşülən nəsnə olacaq və o, elə xüsusiyyətlərə malikdir ki, onlar, yuxarıda gördüyümüz kimi, ədalət və ağlığı ədalətli hərəkətlərdən və ağ şeylərdən fərqləndirir.

Adi sözləri araşdırdıqda aşkarlayırıq ki, ümumilikdə desək, xüsusi adlar təkləri, digər isim, sifət, sözönü və feillər isə universaliləri bildirir. Şəxs əvəzlikləri də təkləri bildirir, ancaq onlar çoxmənalıdır: onların hansı tək nəsnələri bildirdiyini yalnız kontekst və ya şərtlərə əsasən bilirik. "İndi" sözü təki, yəni indiki anı bildirir; o da şəxs əvəzlikləri kimi çoxmənalıdır, çünki indi həmişə dəyişir.

Görünən budur ki, heç bir cümlə ən azı bir universali bildirən söz olmadan qurula bilməz. Ən az universali bildirən sözün işləndiyi cümlə "mən bunu xoşlayıram" kimi bir cümlə olardı. Ancaq hətta burada da "xoşlayıram" sözü universali bildirir, çünki mən başqa, digər insanlar isə başqa şeyləri xoşlaya bilər. Beləliklə, bütün doğrular universali ehtiva edir, doğrular haqqında bütün biliklər isə universalilərlə tanışlığı.

Lüğətdəki az qala bütün sözlərin universaliləri bildirdiyini nəzərə aldıqda, qəribədir ki, fəlsəfə tələbələrindən başqa, çətin ki, kimsə universali kimi nəsnələrin mövcudluğunu diqqətə alsın. Biz, təbii olaraq, cümlədə tək şeyləri bildirməyən sözlərə çox diqqət ayırmırıq; və əgər universali bildirən sözün üzərində dayanmağa məcbur olsaq, əlbəttə, onu univarsalinin sahəsi altına düşən təklərdən biri olaraq düşünərik. Məsələn, "I Karlın başı kəsilib" cümləsini eşitdikdə, əlbəttə, I Karl, I Karlın başı və *onun* başının kəsilməsi əməliyyatı haqqında düşünə bilərik — bunlar hamısı təklərdir. Ancaq biz, əlbəttə, "baş" və ya "kəsmək" sözləri ilə nə nəzərdə tutulmasının — ki, nəzərdə tutulan bir univesalidir — üzərində dayanmırıq. Bizə elə gəlir ki, belə

sözlər natamam və əhəmiyyətsizdir; elə görünür ki, həmin sözlərlə nəsə etməzdən əvvəl bir kontekst olmalıdır. Beləliklə, fəlsəfi araşdırma diqqətimizi onların üzərində cəmləməyə bizi məcbur etməyincə, universaliləri özlüyündə diqqətə almaqdan yayınmış oluruq.

Ümumilikdə deyə bilərik ki, hətta filosoflar arasında da yalnız sifət və ya isimlə işarələnənlər çox və ya tez-tez tanınıb; feil və sözönləri ilə işarələnənlər isə adətən nəzərdən qaçıb. Belə nəzərdən qaçmaların fəlsəfəyə çox böyük təsiri olub. Spinozadan bəri əksər metafiziklər əsasən elə ediblər – desək, şişirtmərik. Bunun necə baş verdiyinin kobud təsviri aşağıdakı kimidir: Ümumi ifadə etsək, sifətlər və ümumi isimlər tək şeylərin xüsusiyyət və ya keyfiyyətlərini ifadə edir, sözönləri və feillərlə isə iki və ya daha artıq şey arasındakı əlaqələrin ifadə edilməsi nəzərdə tutulur. Beləliklə, sözönləri və feillərin diqqətdən qaçması belə bir inamın yaranmasına səbəb olub ki, hər bir propozisiya iki və ya daha artıq şey arasındakı əlaqənin ifadəçisi olaraq deyil, tək şeyə bir xüsusiyyət aid edən nəsnə olaraq nəzərdən keçirilə bilər. Bunun əsasında belə güman edilirdi ki, şeylər arasında əlaqə kimi nəsnələr nəhayətdə ola bilməz. Buradan isə belə çıxırdı ki, ya kainatda yalnız bir şey ola bilər, ya da əgər çox şey varsa, hansısa şəkildə qarşılıqlı əlaqə ola bilməz; çünki istənilən qarşılıqlı əlaqə bir əlaqə olardı, əlaqələrin olması isə qeyri-mümkündür.

Bu baxışlardan birincisi – ki, onu Spinoza müdafiə edib və günümüzdə[1] Bredli, həmçinin digər filosoflar tərəfindən bölüşülür – *monizm* adlanır; Laybnis tərəfindən müdafiə edilən, ancaq günümüzdə çox da geniş yayılmayan ikinci baxış *monadizm* adlanır, çünki izolyasiyada olan şeylərin hər biri *monad* adlanır. Bir-birinə əks olan bu fəlsəfələrin hər ikisi maraq kəsb etsə də, fikrimcə, onlar birtərəfli olaraq bir növ universaliləri – yəni feillər və sözönləri ilə deyil, sifətlər və isimlərlə təmsil olunan universali növünü – diqqətə almağın nəticəsidir.

Əslində, əgər kimsə universali kimi nəsnələrin olduğunu tamamilə inkar etməkdə israrlı olsaydı, onda qəbul etməli olardıq ki, *keyfiyyət* kimi nəsnələrin – yəni sifətlər və isimlərlə təmsil olunan universalilərin – olmağını ciddi sübut edə bilmərik; bununla belə, biz sübut edə bilərik ki, *əlaqələr*, yəni feillər və sözönləri ilə təmsil olunan universalilər olmalıdır. Nümunə üçün gəlin *ağlıq* universalisini götürək. Əgər belə bir universalinin olduğuna inanırıqsa, deyəcəyik ki, şeylər ağdır, çünki onların ağlıq keyfiyyəti var. Ancaq bu baxış Berkli və Yum tərəfindən şiddətlə inkar edilib və onların bu mövqeyini sonrakı empirisistlər də bölüşüblər. Onların bu inkarı "abstrakt ideyalar" kimi şeyləri inkar etmək şəklində idi. Onlar deyirdilər ki, ağlıq haqqında düşünmək istəyəndə biz hansısa tək ağ bir şeyin obrazını formalaşdırırıq və bu tək şey haqqında düşünürük; bu zaman diqqətdə saxlayırıq ki, hər hansı başqa ağ şey barədə eyni dərəcədə doğru olduğunu görə bilmədiyimiz heç nəyi onun haqqında nəticə çıxarmayaq. Bu, aktual olan zehni proseslərimizin izahı kimi, şübhəsiz, əsasən doğrudur. Məsələn, həndəsədə bütün üçbucaqlar barədə nəyisə sübut etmək istəyən zaman biz tək üçbucaq çəkirik və onun haqqında düşünürük və bu zaman diqqətdə saxlayırıq ki, onun digər üçbucaqlarla bölüşmədiyi heç bir xüsusiyyətdən istifadə etməyək. Səhvlərdən yayınmaq məqsədilə yeni başlayan birisi tez-tez mümkün qədər bir-birinə bənzəməyən bir neçə üçbucaq çəkməyi faydalı hesab edir; əmin olmaq üçün ki, onun mühakiməsi üçbucaqların hamısına eyni dərəcədə aiddir. Bununla belə, "şeyin ağ və ya üçbucaq olduğunu necə bilirik?" sualını özümüzdən soruşan kimi çətinliklə üzləşirik. Əgər *ağlıq* və *üçbucaqlılıq* universalilərindən yan qaçmaq istəyiriksə, hansısa tək ağ ton və ya tək üçbucaq seçərik və deyərik ki, bir şey o zaman ağ və ya üçbucaqdır ki, o, bizim seçdiyimiz nəsnəyə düzgün şəkildə oxşarlığı var. Lakin bu zaman tələb olunan oxşarlıq universali olmalı olacaq. Ağ şeylər çox olduğundan, oxşarlıq tək ağ şeylərin çoxlu cütləri arasında olmalıdır; bu, bir universali xüsusiyyətidir. Hər cüt üçün fərqli oxşarlıq olduğunu demək faydasız olar, çünki onda

deməli olacağıq ki, bu oxşarlıqlar bir-birinə oxşayır və beləliklə, sonunda oxşarlığı bir universali kimi qəbul etməyə məcbur olacağıq. Ona görə də oxşarlıq əlaqəsi əsl universali olmalıdır. Və bu universalini qəbul etməyə məcbur olduqdan sonra biz aşkarlayırıq ki, ağlıq və üçbucaqlılıq kimi universaliləri qəbul etməkdən yayınmaq üçün qəliz və uyğunsuz nəzəriyyələr ixtira etməyə daha ehtiyac yoxdur.

Berkli və Yum onların "abstrakt ideyaları" inkarına qarşı bu təkzibi görə bilməyiblər, çünki öz rəqibləri kimi onlar da yalnız *keyfiyyətlər* haqqında düşünüblər, *əlaqələri* universali olaraq tamamilə inkar ediblər. Ona görə burada empirisistlərə qarşı rasionalistlərin digər bir aspektdən də haqlı olduqlarının şahidi oluruq; baxmayaraq ki, əlaqələrə etinasızlıq və ya inkar səbəbindən rasionalistlərin uzağagedən nəticələri empirisistlərinkindən daha yanlış olardı.

Universali kimi nəsnələrin olduğunu görmüş olduqdan sonra sübut olunası növbəti məsələ onların yalnız zehni olmamasıdır. Bununla o nəzərdə tutulur ki, onlar hər nə cür varlıqdırsa, düşünülməkdən və ya istənilən başqa şəkildə zehin tərəfindən dərk edilməkdən müstəqildir. Bu məsələyə əvvəlki fəslin sonunda artıq toxunmuşuq, indi isə universalilərin nə cür varlığa malik olduğunu daha ətraflı nəzərdən keçirməliyik.

Gəlin "Edinburq Londondan şimaldadır" propozisiyasını nəzərdən keçirək. Burada söhbət iki yer arasındakı əlaqədən gedir və aydın görünür ki, bu əlaqə bizim onu bilməyimizdən asılı olmadan mövcuddur. Edinburqun Londonun şimalında olduğunu bildikdə yalnız Edinburqla və Londonla bağlı nəyisə bilirik. Biz propozisiyanı bilməklə onun doğruluğuna səbəb olmuruq, əksinə, yalnız haqqında bildiyimizdən əvvəl mövcud olan bir faktı dərk edirik. Əgər şimal və cənub haqqında bilən insan və ümumiyyətlə, kainatda heç bir zehin olmasaydı belə, yer səthinin Edinburq olan hissəsi yenə də London dayanan hissənin şimalında olardı. Əlbəttə, bu ya Berklinin, ya da Kantın gətirdiyi arqumentlər səbəbindən bir çox filosoflar tərəfindən inkar edilir. Ancaq biz bu arqumentləri artıq nəzərdən

keçirdik və qərara gəldik ki, onlar qeyri-adekvatdır. Ona görə indi doğru hesab edə bilərik ki, Edinburqun Londonun şimalında olması faktında mental heç nə ehtiva olunmur. Ancaq bu fakt universali olan "şimalında" əlaqəsini ehtiva edir; və faktın tərkib hissəsi olan "şimalında" əlaqəsi zehni nəyisə ehtiva etsəydi, bütöv faktın zehni heç nəyi ehtiva etməməsi mümkünsüz olardı. Deməli, biz qəbul etməliyik ki, əlaqələndirdiyi terminlər kimi, əlaqə özü təfəkkürdən asılı deyil, təfəkkürün dərk etdiyi, ancaq yaratmadığı müstəqil dünyaya aiddir.

Ancaq bu nəticə belə bir çətinliklə üzləşir: "şimalında" əlaqəsinin Edinburq və Londonun mövcud olduğu mənada mövcud olduğu görünmür. Əgər biz "bu əlaqə harada və nə zaman mövcuddur?" soruşsaq, cavab "heç bir yerdə, heç bir zaman" olmalıdır. Elə bir zaman və ya məkan yoxdur ki, orada "şimalında" əlaqəsini tapa bilək. O nə Edinburqda, nə də Londonda mövcud deyil, çünki o, bu ikisini onların heç birinə məxsus olmadan əlaqələndirir. Həmçinin biz deyə bilmərik ki, o, hansısa zaman kəsiyində mövcuddur. Hisslər və ya introspeksiya vasitəsilə dərk edilən hər şey müəyyən zaman kəsiyində mövcud olur. Deməli, "şimalında" əlaqəsi belə şeylərdən radikal olaraq fərqlənir. O nə məkandadır, nə də zamanda, nə maddidir, nə də zehni; bununla belə, o, bir nəsnədir.

Bir çoxlarını universalilərin əslində zehni olmasını güman etməyə gətirib çıxaran da onun məhz belə xüsusi növ nəsnə olmasıdır. Biz bir universali *haqqında* düşünə bilirik və bu zaman istənilən digər zehni akt kimi bizim düşüncəmiz sözün məhz adi mənasında mövcud olur. Məsələn, güman edin ki, biz ağlıq haqqında düşünürük. Onda *sözün bir mənasında* deyilə bilər ki, ağlıq "zehnimizdədir". Burada Fəsil 4-də Berkli müzakirə edilən zaman qeyd etdiyimiz çoxmənalılıq var. Sözün ciddi mənasında zehnimizdə olan ağlıq deyil, ağlıq haqqında olan düşüncə aktıdır. "İdeya" sözündəki bununla əlaqəli çoxmənalılıq – ki, onu da həmin zaman qeyd etmişdik – burada da çaşqınlığa səbəb olur. Bu sözün bir mənasında, yəni düşüncə aktının *obyekti*ni bildirən mənada ağlıq "ideya"dır. Deməli, bu

çoxmənalılıq nəzərə alınmasa, belə düşünə bilərik ki, ağlıq sözün digər, yəni düşüncə aktı mənasında “ideya”dır; və beləliklə, o nəticəyə gəlirik ki, ağlıq zehnidir. Ancaq belə düşünməklə biz onu mahiyyəti olan universallıq keyfiyyətindən məhrum edirik. Bir insanın düşüncə aktı başqa insanınkından zəruri olaraq fərqlidir; müəyyən bir anda bir insanın düşüncə aktı həmin insanın başqa andakı düşüncə aktından zəruri olaraq fərqli bir şeydir. Deməli, əgər ağlıq obyekt deyil, düşüncə olsaydı, iki müxtəlif insan onun haqqında düşünə bilməzdi və heç bir insan onun haqqında iki dəfə düşünə bilməzdi. Ağlıq haqqındakı müxtəlif düşüncələrin ümumi malik olduğu nəsnə onların *obyektidir* və bu obyekt onların hamısından fərqlidir. Beləliklə, bilindikdə düşüncə obyektləri olmalarına baxmayaraq, universalilər düşüncə deyil.

Biz şeylərin *mövcud olması* haqqında yalnız onlar zamanda olduqda, yəni onların mövcud olduqları müəyyən zamana işarə etdikdə (hər zaman mövcud olmaq imkanını istisna etmədən) danışmağı rahat bilirik. Belə ki, düşüncələr və hisslər, zehinlər və fiziki obyektlər *mövcuddur*. Ancaq universalilər bu mənada mövcud deyil. Biz deyəcəyik ki, onlar varlığa malikdir (*subsist* or *have being*); “varlıq” burada zamansız var olmaq olaraq “mövcudluğ”a qarşı qoyulur. Bu səbəbdən, universalilər dünyası varlıq dünyası kimi də təsvir oluna bilər. Varlıq dünyası dəyişməz, möhkəm, dəqiqdir; riyaziyyatçılar, məntiqçilər, metafizik sistem yaradanlar və mükəmməlliyi həyatdan daha çox sevən hər kəs üçün valehedicidir. Mövcudluq dünyası dəyişkən, qeyri-dəqiq, aydın sərhədləri, plan və ya nizamı olmayan dünyadır – ancaq bütün düşüncələr və hisslər, bütün hissi verilənlər və fiziki obyektlər, ziyan və ya xeyir verən hər bir şey, həyati və dünyəvi baxımdan əhəmiyyətə malik hər şey oradadır. Temperamentlərimizdən asılı olaraq, üzərində düşünmək üçün bu və ya digərinə üstünlük veririk. Üstünlük vermədiyimiz, yəqin, bizə üstünlük verdiyimizin sönük kölgəsi kimi görünər və sözün hər hansı mənasında gerçək kimi nəzərdən keçirilməyə çətin ki layiq hesab olunar. Ancaq həqiqət budur ki, onların hər ikisi bitərəf diqqətimizə eyni dərəcədə

iddialıdır, hər ikisi gerçəkdir və metafizik üçün vacibdir. Əslində, bu iki dünyanı bir-birindən fərqləndirər-fərqləndirməz onların bir-birilə münasibətlərini nəzərdən keçirmək zərurətə çevrilir.

Ancaq hər şeydən əvvəl biz universalilər haqqındakı biliklərimizi nəzərdən keçirməliyik. Bu məsələ ilə növbəti fəsildə məşğul olacağıq. Aşkar edəcəyik ki, o, bizi universalilərin üzərinə ilk olaraq gətirmiş olan apriori bilik problemini də həll edir.

**Qeydlər və istinadlar**:

[1] Təqribən XIX əsrin sonu – XX əsrin əvvəlləri nəzərdə tutulur – tərcüməçi qeydi.

**Tərcümənin birinci hissəsi:**

*Təzahür və gerçəklik*

**Tərcümənin ikinci hissəsi:**

*Materiyanın mövcudluğu*

**Tərcümənin üçüncü hissəsi:**

*Materiyanın mövcudluğu*

**Tərcümənin dördüncü hissəsi:**

*İdealizm*

**Tərcümənin beşinci hissəsi:**

*Tanışlıq biliyi və təsviri bilik*

**Tərcümənin altıncı hissəsi:**

*İnduksiya haqqında*

**Tərcümənin yeddinci hissəsi:**

*Ümumi prinsiplər haqqındakı biliklərimiz barədə*

**Tərcümənin səkkizinci hissəsi:**

*Apriori bilik necə mümkündür?*